## Elm və Təhsil Nazirliyi növbəti "Maarifçi" tələbə-məzun təcrübə proqramını elan edir!

### Proqramın məqsədi

Proqramın məqsədi tələbə və yeni məzunlara təcrübə imkanı yaratmaq, onların bilik və bacarıqlarını artırmaq, nəzəri biliklərini praktikaya çevirmək və gənclərə peşəkar vərdişlər qazandırmaqdır.

### Proqramın əhatə dairəsi

3 ay davam edəcək "Maarifçi" proqramı çərçivəsində seçilmiş iştirakçılar Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, həmçinin Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin müxtəlif struktur bölmələrində təcrübə keçəcəklər. İştirakçılar həmçinin onlar üçün təşkil olunan təlimlərdən yararlanacaq və sosial bacarıqlarını inkişaf etdirəcəklər.

Proqramın Gəncə şəhəri və Şamaxı, Sabirabad, Salyan, Şəmkir rayonlarında da təşkili nəzərdə tutulub.

### Proqrama kimlər müraciət edə bilərlər?

Müraciətçilər aşağıdakı tələblərə cavab verməlidirlər:

- Azərbaycan Respublikasının vətəndaşı olmalı;
- Bakalavriat səviyyəsinin sonuncu kursunda və ya magistratura səviyyəsində təhsil alan tələbə, təhsilini son 3 il ərzində başa vurmuş məzun olmalı.

Əlavə sual və təkliflər üçün İnsan.Resurslari@edu.gov.az ünvanına "*Maarifçi tələbə-məzun proqramı*" başlığı ilə elektron məktub göndərə bilərsiniz.

Müraciət üçün keçid: https://app.anket.edu.az/user/29

"Maarifçi" tələbə-məzun **proqramına** müraciət üçün keçid